# "EU BRIDGE" LAYİHƏSİ HAQQINDA

## AVROPA İTTİFAQI HAQQINDA

Avropa İttifaqı (Aİ) əsasən Avropada yerləşən 27 üzv dövlətdən ibarət fövqəlmilli siyasi və iqtisadi birlikdir. Aİ tez-tez həm federasiya, həm də konfederasiya xüsusiyyətlərini özündə birləşdirən özünəməxsus siyasi qurum kimi təsvir edilmişdir.

Avropa İttifaqının Azərbaycan Respublikası ilə münasibətləri 1999-cu ildən qüvvədə olan Avropa İttifaqı - Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq müqaviləsinə əsaslanır. 2017-ci ilin fevral ayında Aİ və Azərbaycan Respublikası siyasi dialoq, ticarət və qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək üçün hazırlanmış yeni çərçivə müqaviləsi üzrə danışıqlara başladılar.

Aİ-nin Azərbaycana yardımı Tərəfdaşlıq Prioritetlərində göstərilən siyasət hədəflərini dəstəkləyərək Azərbaycan vətəndaşlarının həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq məqsədi daşıyır. Bu yardım dövlətə birbaşa maliyyə dəstəyi, texniki yardım layihələri, vətəndaş cəmiyyətinə ayrılmış qrantlar və ya Erasmus+ kimi Aİ proqramlarına çıxışın əldə edilməsi şəklində ola bilər.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

IFRC

## BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA CƏMİYYƏTLƏRİ FEDERASİYASI (IFRC) HAQQINDA

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (IFRC) 191 Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərini (Milli Cəmiyyət) birləşdirən və qlobal katiblik vasitəsilə onlara dəstək verən beynəlxalq üzvlük təşkilatıdır.

IFRC fəlakət və böhran qurbanlarına kömək etmək üçün yardım fəaliyyətləri həyata keçirən humanitar bir qurum kimi unikal rola malikdir və bunu üzv olan Milli Cəmiyyətlərin bacarıqlarını gücləndirmək fəaliyyətləri ilə birləşdirir.

IFRC həssas insanların ehtiyaclarını ödəmək və həyatlarını yaxşılaşdırmaq üçün fəlakətlərdən və təxirəsalınmaz tibbi vəziyyətlərindən əvvəl, hadisə zamanı və sonra fəaliyyət göstərir.

IFRC humanitar dəyərləri və Qızıl Xaç və Qızıl Aypara Hərəkatının yeddi Fundamental Prinsipini, yəni Humanizm, Qərəzsizlik, Neytrallıq, Müstəqillik, Könüllü xidmət, Vahidlik və Universallıq kimi prinsipləri təbliğ edir və fəaliyyətlərini həyata keçirərkən bu prinsiplərə istinad edir. IFRC və AzQAC-ın Azərbaycanın dövlət orqanları ilə konstruktiv tərəfdaşlıq əlaqələri qarşıda duran fəaliyyətlərin həyata keçirilməsini asanlaşdıracaq və cəlb olunan VCT-lər ilə dövlət orqanları arasında səmərəli tərəfdaşlığın inkişafına töhfə verəcək.

## LAYİHƏ HAQQINDA

Avropa İttifaqı (Aİ) və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (IFRC) Azərbaycanda dayanıqlı və inklüziv inkişafa töhfə verən vətəndaş cəmiyyətinin institusional potensialının inkişaf etdirilməsinə yüksək dəyər verir. Vətəndaş cəmiyyətinin milli inkişaf proseslərində iştirakını daha çox dəstəkləmək üçün Aİ və IFRC "Azərbaycanda icma ehtiyacları ilə vətəndaş cəmiyyəti təşkilatlarının yerli potensialları və bacarıqları arasındakı boşluğun aradan qaldırılması" adlı 3 illik layihənin icrasına başlamışdır.

**Proqramın məqsədlərinə aşağıdakı gözlənilən nəticələrin əldə edilməsi hesabına nail olunacaqdır:**

1. VCT-lərin hesabatlılıq və humanitar məsələlərlə bağlı potensialları gücləndirilir.
2. Humanitar dəstək proseslərinin iştirakçıları kimi VCT-lər üçün zəruri imkan yaradılır
3. 2020-ci ildə COVID-19 pandemiyası və münaqişənin alovlanmasından zərər çəkmiş ən həssas icmaların bərpa və dolanışıq vasitələri (birbaşa yardım əvəzinə) ilə bağlı ehtiyaclarının qarşılanmasında VCT-lərə dəstək göstərilir.
4. İcmaların çətinliklərinin dayanıqlı və insan yönümlü şəkildə azaldılmasına dəstək məqsədilə, VCT-lərin hərtərəfli institusional inkişaf prosesindən əldə etdikləri bilik və təcrübələri praktikada tətbiq etməsi üçün onlar resurslarla təmin edilir.

YOUR NGO

Public